# QUBA-XAÇMAZ İQTİSADİ RAYONUNDA TORPAQLARIN ÇİRKLƏNMƏ SƏBƏBLƏRİ VƏ GÖRÜLƏN TƏDBİRLƏR

**Nağıyeva R.Z., Qasımova A.S.**

*Bakı Dövlət Universiteti*
*refiqeqocayeva93@mail.ru*

Azərbaycanın torpaq örtüyü öz zənginliyi və rəngarəngliyi ilə fərqlənir. Quba-Xaçmaz iqtisadi rayonu- Şabran, Xaçmaz, Quba, Qusar və Siyəzən inzibati rayonlarını əhatə etməklə Azərbaycanın şimal-şərq hissəsində yerləşir. Quba-Xaçmaz bölgəsi şaquli zonallıq üzrə dağlıq, dağətəyi və düzən yarımbölgəyə ayrılır. Bu yarımbölgələrin hər birinin torpaq – iqlim şəraiti meyvə bitkilərinin becərilməsi üçün əlverişlidir. Quba-Xaçmaz iqtisadi rayonunun əsas təbii sərvətləri neft, təbii qaz, yanar şist, qum, çınqıl, gildir. Eyni zamanda rayon ərazisindən dəmir yolu, avtomobil yolları, magistral neft, qaz və su kəmərləri keçir. Mövcud amillər torpaqların çirklənməsinə, deqradasiyasına və təbii mühitinin pozulmasına səbəb olur.

Neft və qazın çıxarılması, nəqli, emalı nəticəsində münbit torpaq qatı neftli tullantılarla çirklənir, pozulmuş və basdırılmış neft mədən yerləri əmələ gəlir. Bu zaman torpaqların münbit qatı nəinki neftli tullantılarla, xüsusən lay suları ilə çirklənmiş, eyni zamanda mexaniki pozulmalara, dağılmalara və deqradasiyaya məruz qalıb. Hazırda neftlə çirklənmiş torpaqların bərpası aktual məsələlərdən biridir. Neft və neft məhsulları ilə çirklənmiş torpaqların sağlamlaşdırılması üçün müasir dövrdə mexaniki (fiziki-kimyəvi), bioloji, kimyəvi, termik və biotexnoloji üsullar tətbiq olunur. Quba-Xaçmaz iqtisadi rayonunda da torpaqların bərpası üçün bir sıra tədbirlər həyata keçirilir.

Aqrohidro və biomeliorativ tədbirlər torpaqların yaxşılaşdırılmasına kömək edən tədbirlərdəndir. İstifadə olunan tədbirlərin əsas metodları bunlardır: 1.fitomeliorasiya – çoxillik otların əkilməsi. 2.fitoremediasiya texnologiyaları-bəzi bitkilərin ətraf mühitdə çirkləndirici maddələr kimi mövcud olan elementləri və kimyəvi birləşmələri udmaq, cəmləşdirmək və metabolizə etmək üçün təbii qabiliyyətindən istifadə edir. 3.bioremediasiya-mikroorqanizmlərin (bakteriya və göbələk), yosunların və ali bitkilərin biokimyəvi potensialından istifadə etməklə su və torpaqların çirkləndiricilərdən təmizlənməsi üsulu. Neftlə çirklənmiş torpaqlarda karbohidrogenlərin deqradasiya sürətinin artırılmasında bitki örtüyünün əhəmiyyəti böyükdür. Bu baxımdan fitomeliorasiya tədbirləri daha geniş istifadə olunur. Həmçinin neftlə çirklənmiş torpaqların fitomeliorasiyası (ekoloji baxımdan ixtisaslaşdırılmış bitkilərin köməkliyi ilə remediasiya) sabit inkişaf edən texnologiyadır və effektli olmaqla bərabər neftlə çirklənmiş torpaqların bərpası üçün geniş yayılmış texniki və ənənəvi metodlara nisbətən ucuz başa gəldiyindən əlverişlidir. Fitomeliorasiyada çirklənmiş torpaqların bitkilərdən istifadə etməklə təmizlənməsi ətraf mühitdə bitkilər və

mikroorqanizmlər arasında təbii tarazlıq yaradan mahiyyət etibarı ilə ekoloji üsul hesab olunur. Bundan əlavə, gübrələrin kortəbii, heç bir elmi mülahizəyə söykənmədən tətbiq olunduğu sahələrdə torpaqların ekoloji vəziyyəti pisləşməkdə davam edir.

"Ətraf mühit və təbii ehtiyatların dövlət monitorinqinin aparılması qaydaları haqqında"Əsasnaməyə uyğun olaraq respublika ərazisində mütəmadi olaraq torpaqların çirklənməsi üzərində monitorinq həyata keçirilir. Belə mütəmadi müşahidələr Quba-Xaçmaz iqtisadi rayonunda müxtəlif kənd təsərrüfatı bitkilərinin əkin sahələrində də aparılır. Torpaqlarımızın münbitliyin qorumaq və onların sahəsinin azalmasının qarşısını almaq əsas ekocoğrafi problemlərdən biridir.